# UĞURLU GƏLƏCƏYƏ BÖYÜK İNAMLA

**Yeni Azərbaycan Partiyasının yaradılmasından 29 il ötür. O vaxt məşhur "91-lər" ölkədə yaranmış böhranı, xaos vəziyyətini nəzərə alaraq Naxçıvanda yaşayan görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əliyevə müraciət etmiş və ölkəni ağır vəziyyətdən çıxara biləcək qurtuluş missiyasını öz üzərinə götürən yeni bir partiya yaradılması təklifini irəli sürmüşdülər.**

Müdrik rəhbərin razılığından sonra 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmiş və o, partiyaya sədr seçilmişdir. Xalqımız Azərbaycanı işıqlı gələcəyə apara bilən müdrik, təcrübəli dövlət xadiminə və cəsarətli, qüdrətli şəxsiyyətə öz taleyini etibar etməkdə böyük uzaqgörənlik nümayiş etdirmişdir. Ümummilli liderin rəhbərliyi ilə yeni partiyanın yaradılması nəticəsində Azərbaycan çox məsul, yeni siyasi dövrə qədəm qoymuş, taleyini, gələcəyini müəyyənləşdirmişdir.

1993-cü ildə böhran son həddə çatanda, ölkədə vəziyyət kəskin xarakter alanda xalq Heydər Əliyevə üz tutmuş və onun Bakıya, siyasi hakimiyyətə qayıtmasını təkidlə tələb etmişdir. O zamankı prezident qəfildən öz səlahiyyətlərini yerinə yetirməkdən imtina etdiyinə görə Heydər Əliyev Ali Sovetin sədri kimi həm də ölkə prezidentinin səlahiyyətlərini həyata keçirmək məcburiyyətində qaldı. Ulu öndərin dediyi kimi "Bu partiya iqtidara birdən-birə gəlmədi, qeyri-adi bir tarix yaşadıq". Bəli, xilaskar partiyanın meydana gəlməsi 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi.

Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası özünün ilk addımlarını Azərbaycanda siyasi sabitliyin bərpasına yönəltdi. Ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, ictimai-siyasi sabitlik, əmin-amanlıq bərpa olundu. Bütün bunlar Yeni Azərbaycan Partiyasının nüfuzunu daha da artırdı. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı bəlalardan xilas etdi, ölkənin gələcək uğurlarına yol açdı. Xalq öz gələcəyinin təminatçısı qismində yalnız Heydər Əliyevi görür və taleyini ona etibar edirdi.

Payızda demokratik seçki yolu ilə prezident seçilən Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində Azərbaycan sabitlik, dinc quruculuq və inkişaf mərhələsinə qədəm qoydu. 1994-cü ildə Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə "Əsrin müqaviləsi" imzalandı. Ölkənin sürətli inkişaf yoluna çıxması, böyük iqtisadi uğurların əldə olunması üçün zəmin yaradıldı.

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Milli Konstitusiyası qəbul olundu. İqtisadiyyat, dövlət quruculuğu, sosial və digər sahələrdə uğurlu islahatlar aparıldı. Nizami ordu yaradıldı. Qarabağda uğurlu döyüş əməliyyatları keçirildi. Ermənistan müharibədə atəşkəsə imza atmağa məcbur oldu.

Azərbaycanın dövlət müstəqilliyinin əbədi, dönməz xarakter alması təmin edildi. Ölkəmizin beynəlxalq aləmdə mövqeyi gücləndi, nüfuzu getdikcə artdı. Xarici dövlətlər, beynəlxalq təşkilatlar ümummilli liderin apardığı uğurlu siyasətə arxalanaraq müxtəlif sahələrdə Azərbaycan ilə əməkdaşlığa başladılar.

Ulu Öndər partiyanın yaradılmasının onuncu ildönümü ilə bağlı keçirilən tədbirdə demişdir: "Müstəqil Azərbaycan yeni Azərbaycandır. Müstəqil Azərbaycanda yeni ictimai-siyasi quruluş yaranıbdır. Yeni iqtisadiyyat formaları yaranıb, demokratiya, siyasi plüralizm inkişaf edir. Belə bir yeni Azərbaycan keçmişdə yaşadığımız, keçmişdə olan Azərbaycandan fərqlidir. Ona görə partiyamızın adı da Yeni Azərbaycan Partiyasıdır. Məhz Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır".

İqtidar partiyası olan YAP xalqın inam və etimadını qazanaraq ümumxalq partiyasına çevrilib. Bu gün fəxrlə və qürurla vurğulamaq istəyirəm ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin ardıcıl, məqsədyönlü siyasəti sayəsində partiyamızın cəmiyyət arasında nüfuzu daha da yüksəlib. Azərbaycanın müdrik rəhbərinin şəxsi nümunəsi hər bir partiya üzvü üçün əsl məktəbdir.

Sevinirik ki, Azərbaycan regionun ən güclü, qüdrətli dövlətidir. Cənubi Qafqazda ölkəmizin razılığı olmadan heç bir layihə icra olunmur. Müzəffər Ali Baş Komandanın rəhbərliyi, qüdrətli ordumuzun peşəkarlığı, yüksək döyüş qabiliyyəti sayəsində 44 günlük Vətən müharibəsində şanlı qələbə əldə olundu. Təxminən 30 illik erməni işğalına son qoyuldu, torpaqlarımız mənfur düşmənin əsarətindən azad edildi. Şanlı ordumuz hərb tarixinə Zəfər dolu yeni səhifə yazdı. Azərbaycan dünyada qalib xalq kimi tanındı.

Ölkəmizin ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi hər birimizi hədsiz dərəcədə sevindirir.

Hazırda işğaldan azad olunmuş torpaqlarımızda genişmiqyaslı tikinti, bərpa-quruculuq işləri görülür. Qarabağın inkişaf dövrü, yeni növrağı başlanır. Partiyamızın sıravi üzvləri də bu inkişafa, tərəqqiyə öz töhfələrini verir.

Həyat göstərdi ki, YAP cəmiyyətimizin ən aparıcı siyasi qüvvəsidir. Müzəffər Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan işıqlı, parlaq gələcəyə inamla, uğurlu addımlarla gedir.

**Hikmət XƏLİLOV,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**
**Masallı.**